İPƏK YOLU, No.1, 2018, səh.26-35

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN QAFQAZDA YARANMIŞ DİGƏR RESPUBLİKALARLA QARŞILIQLI MÜNASİBƏTLƏRİ (1918-1920-ci illər)

**Qabil Əliyev**

Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: Qabil-Aliyev@mail.ru

**Xülasə**. Məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin müstəqillik qazandıqdan dərhal sonra Qafqazda yeni yaranmış digər respublikalarla normal qonşuluq əlaqələri təhlil edilmişdir. Göstərilir ki, Azərbaycan Respublikası Gürcüstan və Dağlı respublikaları ilə öz aralarında normal əlaqələr yaratmış, sonrakı dövrdə isə bu respublikalar arasında qarşılıqlı faydalı əməkdaşlıq yüksələn xətlə inkişaf etmişdir. Ancaq Ermənistanın işğalçılıq siyasəti bu ölkə ilə normal münasibətlərin qurulmasına imkan vermədi.

**Açar sözlər**: Azərbaycan, Gürcüstan, Ermənistan, Dağlı respublikası, sazişlər, əməkdaşlıq, ərazi iddiaları.

## THE RELATIONS BETWEEN THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC AND OTHER NEWLY-FORMED REPUBLICS IN THE CAUCASUS

**Gabil Aliyev**
*Baku State University, Baku, Azerbaijan*
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract**. In the paper the good-neighborly relations between Azerbaijan Democratic Republic and other newly-formed republics in the Caucasus are analyzed. It is shown that Azerbaijan Democratic Republic has established normal relations with the Georgian and Mountain republics, and in the subsequent period there was a mutually beneficial cooperation between these republics. However, the territorial claims of Armenia to Azerbaijan did not allow establishing normal relations with this country.
**Keywords:** Azerbaijan, Georgia, Armenia, the Mountain Republic, agreements, cooperation, territorial claims.

## ВЗАИМООТНОШЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ С ДРУГИМИ НОВООБРАЗОВАННЫМИ РЕСПУБЛИКАМИ НА КАВКАЗЕ

**Габиль Алиев**
*Бакинский Государственный Университет, Баку, Азербайджан*
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В статье анализируются добрососедские отношения между Азербайджанской Демократической Республикой и другими новообразованными республиками на Кавказе. Показывается, что Азербайджанская Демократическая Республика установила нормальные отношения с Грузинскими и горскими республиками, и в последующий период между этими республиками существовало взаимовыгодное сотрудничество. Однако территориальные претензии Армении не позволили установить нормальные отношения с этой страной.
**Ключевые слова**: Азербайджан, Грузия, Армения, Горская республика, соглашения, сотрудничество, территориальные претензии.

Azərbaycan Xalq Cümhuriyyəti və Qafqazda yeni yaranmiş digər respublikalar: Gürcüstan Demokratik Respublikası, Ermənistan (Ararat) Respublikası və Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikası (Dağlı Respublikası) 1918-ci ilin yazında müstəqillik

qazandıqdan dərhal sonra öz aralarında siyasi, hərbi, diplomatik, iqtisadi, maliyyə, nəqliyyat, rabitə və digər sahələr üzrə çeşidli əlaqələr yaratmaq, qarşılıqlı faydalı əməkdaşlığı tənzimləmək və dərinləşdirmək zərurəti ilə üzləşdilər. Azərbaycanla qonşuları arasında 1918-1920-ci illərdə bərqərar olmuş qarşılıqlı münasibətlərin araşdırılması təkcə elmi əhəmiyyət kəsb etmir, həm də çox böyük praktik əhəmiyyətə malikdir. Çünki haqqında bəhs olunan dövrdə çox mürəkkəb, ziddiyyətli problemləri gənc respublika rəhbərləri, demək olar ki, əksər hallarda öz xalqlarının ali mənafeyinə uyğun şəkildə, danışıqlar apararaq qarşılıqlı güzəştlərə getməklə həll etməyə müvəffəq olmuşdular. Azərbaycanın o zamankı rəhbərlərindən biri olan M.Ə. Rəsulzadənin qeyd etdiyi kimi «xristian qonşulardan Gürcü Cümhuriyyəti ilə çox dostanə münasibət» yaradılmışdı [6, s. 58].

Qeyd etmək lazımdır ki, bu problemin ayrı-ayrı cəhətlərinə Azərbaycan tarixşünaslığında C.P. Həsənovun [3], N.L. Nəsibzadənin [5] monoqrafiyalarında və ümumi xarakterli əsərlərdə [2, 4] toxunulsa da, ayrıca tədqiqat obyekti olmamışdır. Təqdim olunan məqalədə 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti ilə qonşuları arasında əməkdaşlığın qurulması istiqamətində atılan addımlar başlıca olaraq ilkin mənbələr [9, 10, 11, 14] və dövri mətbuat materialları [12, 13] əsasında araşdırılmışdır.

Azərbaycan və Gürcüstan və Dağlı Respublikasının o zamankı siyasi xadimləri, dövlət rəhbərləri yaxşı başa düşürdülər ki, müstəqil dövlət quruculuğuna qədəm qoysalar da, bir-biri ilə ən müxtəlif sahələrdə normal münasibətlər yaratmadan, təcrid olunmuş şəraitdə öz mövcudluqlarını təmin etmələri mümkün deyildir. Ona görə də, Batumda Osmanlı dövləti ilə sülh danışıqları aparan Azərbaycan və Gürcüstanın səlahiyyətli nümayəndələri artıq 1918-ci il iyunun 4-də Bakı-Batum ağ neft kəmərinin yenidən işə salınması və normal işləməsini təmin etmək haqqında saziş bağladılar [14, s. 364].

Həmin gün Batumda həmçinin Azərbaycan və Gürcüstan nümayəndələri Osmanlı və Ermənistan nümayəndələri ilə birlikdə Cənubi Qafqaz dəmir yollarına aid vaqon-parovoz parkının bölüşdürülməsi haqqında saziş imzaladılar. Sazişə görə, tərəflər keçmiş Rusiya imperiyasının mülkiyyəti olan vaqon-parovoz parkını hər ölkənin ərazisindən keçən dəmir yolu xətlərinin uzunluğuna mütənasib şəkildə bölüşdürməli idilər [14, s.365]. Bu müqavilə və sazişlər dövlətlərarası münasibətlərin razılaşmalar yolu ilə nizama salınmasının başlanğıcı oldu.

Azərbaycan Milli Şurası və hökuməti 1918-ci il iyunun 16-da Gəncəyə köçdükdən sonra Gürcüstanla müntəzəm əlaqələr saxlanmasını təmin etmək və məsləhətləşmələr aparmaq üçün Cənubi Qafqaz siyasi dairələrində yaxşı tanınan Məmməd Yusif Cəfərovu AXC-nin bu ölkədə diplomatik nümayəndəsi təyin etdi. O və diplomatik nümayəndəliyin digər işçiləri iki ölkə arasında çeşidli, o cümlədən də iqtisadi sahədə əlaqələrin yaradılması və inkişaf etdirilməsində çox böyük rol oynadılar. Bakı azad edildikdən sonra isə Gürcüstan hökuməti öz diplomatik nümayəndəsi Nikolay Kartsivadzeni Azərbaycana göndərdi. Gürcüstan Respublikasının diplomatik nümayəndəliyi 1918-ci il oktyabrın 2-də Bakıda fəaliyyətə başladı.

1918-ci il iyunun 21-də Gürcüstan hökumətinin sədri N.Ramişvili keçmiş Cənubi Qafqaz hökuməti əmlakının Azərbaycan və Gürcüstan arasında bölüşdürülməsini Azərbaycanın bu ölkədəki nümayəndəsi Məmməd Yusif Cəfərova təklif etdi. Gürcüstan tərəfi öz təklifini bununla əsaslandırdı ki, Ermənistan öz payını artıq götürmüşdür və sonradan Osmanlı dövlətinin nəzarəti altına keçmiş ərazilərdə yerləşdirmişdir. M.Y.Cəfərov elə həmin gün Gəncəyə – Azərbaycan Xarici işlər nazirinə məxfi məlumat göndərərək Gürcüstan hökumətinin Azərbaycanla qarşılıqlı münasibətləri yaxşılaşdırmaq və möhkəmləndirmək istəyi, keçmiş Cənubi Qafqaz hökumətinin əmlakını bölüşdürmək təklifi haqqında bilgi verdi [9, s. 26-27]. Azərbaycan tərəfi ümumi əmlakın bölüşdürülməsinə prinsipial razılıq verdi, avqustun 15-də isə təklif etdi ki, arbitraj yolu ilə, ilk növbədə, Qafqaz cəbhəsinin ləğvi nəticəsində qalmış daşınar əmlak və Cənubi Qafqazın mərkəzi dövlət idarə və təşkilatlarının daşınar əmlakı bölüşdürülsün [14, s. 438].

Gürcüstan hökuməti 1918-ci il avqustun 21-də Azərbaycan və Gürcüstan nümayəndələrindən ibarət arbitraj komissiyası yaratmağa razılıq verdi. Yaradılan arbitraj komissiyası bir neçə iclas keçirdi və tərəflər öz aralarında qarşılıqlı iddiaların danışıqlar yolu ilə çözülməsi istiqamətində nümunə göstərdilər.

1918-ci ilin yayında dövriyyədə olan pul kütləsi çatışmırdı. Azərbaycan hökumətinin başçısı Fətəli xan Xoyski M.Ə.Rəsulzadəyə ünvanlandığı 11 iyul 1918-ci il tarixli direktivində bildirdi ki, Azərbaycan Cümhuriyyəti çox kəskin şəkildə maliyyə vəsaiti sıxıntısı yaşayır. Hazırda ölkədə dövriyyədə olan Cənubi Qafqaz bonları azdır və yeni bon buraxılması haqqında gürcü və erməni nümayəndələri ilə aparılan danışıqlar hələlik bir nəticə verməmişdir [9, s.30].

Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi M.Y. Cəfərovun Azərbaycan hökumətinə ünvanladığı 17 iyul 1918-ci il tarixli məxfi məlumatda bildirilirdi ki, Gürcüstan hökuməti köhnə bonların (Cənubi Qafqaz Komissarlığı dövründə buraxılan bonlar nəzərdə tutulur – Q.Ə.) nümunəsində pul çap etməyə başlamışdır. Məlumatda daha sonra qeyd edilirdi ki, Gürcüstan və Ermənistanın məsuliyyət daşıması şərti ilə həmin pulların dövriyyəyə buraxılması üçün gürcü və erməni nümayəndələri danışıqlar aparırlar [1, siy. 1, iş 18, v.66].

Doğrudan da, 1918-ci il iyul ayının 20-də Gürcüstan və Ermənistan hökumətləri, Azərbaycan hökumətinə xəbər vermədən, 200 milyon Cənubi Qafqaz Komissarlığı bonu buraxılması haqqında müqavilə imzaladılar. Rusiya Dövlət bankının Tiflis kontoru tərəfindən buraxılmış 200 milyon bonu öz aralarında bölüşdürdülər. Azərbaycan hökuməti buna qəti etirazını bildirdi [9, siy. 1, iş 18, v.141].

Lakin Gürcüstan və Ermənistan hökumətlərinin öz maliyyə problemlərini Azərbaycanla anlaşmadan həll etmək istəkləri gözlənilən nəticəni vermədi. Ona görə də, 1918-ci ilin payız aylarında Azərbaycan və Gürcüstan hökumətləri sosial-iqtisadi sahədə vəziyyəti qaydaya salmaq üçün Ermənistan hökuməti ilə birlikdə razılaşdırılmış pul-kredit siyasəti yeritməli oldular. Çünki hər üç respublikada eyni pul vahidi – Cənubi Qafqaz komissarlığı bonu dövriyyədə idi və respublikalar arasında gömrük, sərhəd xidməti hələ

yaranış mərhələsində idi. Ona görə də, Tiflis bank kontorunun buraxmalı olduğu bonun həcmi hökumətlərarası sazişlə tənzimlənməli idi. Bu məqsədlə 1918-ci il sentyabrın 6-da Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələri maliyyə və pul-kredit əməliyyatları üçün birlikdə 280 milyon rubl məbləğində Cənubi Qafqaz komissarlığı bonu buraxılması haqqında saziş imzaladılar. Həmin il noyabrın 15-də Azərbaycanla Gürcüstan arasında əlavə olaraq, daha 160 milyon rubl məbləğində Cənubi Qafqaz Komissarlığı bonu buraxılması haqqında Tiflisdə müqavilə bağlandı. Müqaviləyə görə, Gürcüstan hökuməti buraxılan bonların hamısını norması dolana kimi Azərbaycana göndərməli idi [9, s. 99].

Azərbaycan hökumətinin uğurlu pul-kredit siyasəti həm Bakı bonlarının, həm də Cənubi Qafqaz bonlarının məzənnəsinin möhkəmlənməsinə müsbət təsir göstərdi. Bunun nəticəsi idi ki, 1919-cu ilin yayında Tiflis birjasında xarici valyutaların qiymətdən düşməsi fonunda Cənubi Qafqaz bonunun kursunun yüksəlməsi müşahidə edilirdi [13, 2 iyul 1919, №136].

Azərbaycan hökuməti də öz növbəsində Gürcüstanın neft məhsullarına kəskin ehtiyacını nəzərə alaraq, hökumətlərarası müqavilə bağlanmasını gözləmədən, 1918-ci il dekabrın 21-də Gürcüstan hökumətinə 10 sistern ağ neft, 13 min pud xam neft və 2 sistern benzin göndərməyi qərara almışdı [10, s. 256]. Ticarət və sənaye nazirinin göstərişi ilə hökumətin bu qərarı təxirə salınmadan icra edilmişdi.

Azərbaycan və Gürcüstan hökumətləri iqtisadi, nəqliyyat və rabitə sahələrində əlaqələri nizama salmaq, qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək üçün uğurlu addımlar atdılar. 1918-ci ilin dekabrın 26-da Bakıda Azərbaycanla Gürcüstan arasında mal mübadiləsi haqqında müqavilə bağlandı. Azərbaycan tərəfindən Ticarət və sənaye naziri Behbud xan Cavanşirin, Gürcüstan tərəfindən həmin ölkənin Azərbaycan hökuməti yanındakı diplomatik nümayəndəsi Nikolay Kartsivadzenin imzaladıqları bu sənədə görə, tərəflər dəmir yolu ilə daşınan yüklər üçün 1 il müddətində azad tranzitə, yəni gömrük rüsumu alınmamasına razılıq verdilər. Azərbaycan tərəfi Gürcüstan əhalisinin və dəmir yollarının ehtiyaclarını ödəmək üçün il ərzində 1 milyon pud ağ neft, mazut və sürtkü yağı göndərməyi, Gürcüstan tərəfi də Azərbaycan dəmir yollarının ehtiyacını ödəmək üçün zəruri materiallar və daş kömür göndərməyi öhdəsinə götürdü [13, 24 yanvar 1919, №16].

1919-cu il yanvarın 3-də Tiflisdə Azərbaycanla Gürcüstan arasında teleqraf rabitəsi, yanvarın 4-də isə poçt xidməti haqqında sazişlər və poçt bağlamalarının dəmir yolu ilə daşınması haqqında konvensiyalar bağlandı [9, s. 122-130]. Hər iki ölkənin poçt-teleqraf idarəsi rəislərinin imzaladıqları bu sənədlər beynəlxalq teleqraf və poçt xidmətini nizama salmağa və inkişaf etdirməyə şərait yaratdı. Azərbaycanın və Gürcüstanın ən mühüm şəhərləri arasında daimi teleqraf rabitəsi yaradıldı, hər iki respublikanın vətəndaşlarına beynəlxalq teleqrafdan istifadə hüququ verildi. Tərəflər göndərilən teleqramların məzmununun gizli saxlanmasının təmin edilməsi haqqında razılaşma imzaladılar. Həmçinin, poçt ilə bağlama göndərilməsi, çap məhsulları daşınması üzrə tariflər müəyyənləşdirildi.

1919-cu il martın 8-də Azərbaycanla Gürcüstan arasında dəmir yolu rabitəsi haqqında saziş bağlandı. Azərbaycan Yollar naziri Xudadat bəy Məlik-Aslanov və Gürcüstan Yollar

naziri vəzifəsini icra edən İsidor Malaniyanın imzaladıqları bu sənədə görə, 1918-ci il mayın 26-nadək hər iki respublikanın ərazisində olmuş parovoz və vaqonlar, bu məsələ xüsusi arbitraj komissiyasında həll edilənə qədər, bütünlüklə həmin dövlətin ixtiyarında qalırdı. Sazişə əsasən, tərəflər arasında yük vaqonları mübadiləsi şərtləri, yükdaşıma tarifləri nizama salındı [9, s. 179-183]. Bakı ilə Tiflis arasında gündəlik birbaşa sərnişin qatarları hərəkət etməyə başladı.

1919-cu il iyunun 4-də Tiflisdə Azərbaycan, Gürcüstan və Ermənistan arasında əlavə Cənubi Qafqaz Komissarlığı bonu buraxılması haqqında saziş imzalandı. Bu sazişə görə, Azərbaycan öz payına düşən 180 milyon rubl məbləğində Cənubi Qafqaz Komissarlığı bonunun 60 milyon rublunu Gürcüstan hökumətinə verdi. Əvəzində Gürcüstan hökuməti öz ərazisində 15 milyon rubl məbləğində Azərbaycan və Bakı bonunun sərbəst dəyişdirilməsinə razılıq verdi [9, s. 249-250].

1920-ci il fevralın 5-də Bakıda Azərbaycanla Gürcüstan arasında tranzit yüklər haqqında müqavilə imzalandı. Müqaviləyə görə, tərəflər hər iki ölkə arasında tranzit yüklərin dəmir yolu ilə 1 il müddətində azad, yəni heç bir gömrük rüsumu ödəmədən daşınmasını təmin etməyi öhdələrinə götürdülər [5, s. 103]. Azərbaycan hökuməti bir il ərzində Gürcüstan əhalisinin və dəmir yolunun ehtiyacını ödəmək üçün ixrac ediləcək neft və neft məhsullarının 16 milyon puda qədər olan həcmindən gömrük rüsumu tutulmamasına icazə verdi. Gürcüstan hökuməti də Azərbaycandan aldığı neft və neft məhsullarını öz ərazisindən kənara göndərməməyi öhdəsinə götürdü. Həmçinin Azərbaycan dəmir yolunun ehtiyacını ödəmək üçün lazım olan texniki avadanlığın, daş kömür və meşə materialının gömrük rüsumu ödənmədən daşınmasına razılıq verdi. 1918-1920-ci illərdə Azərbaycanla Gürcüstan arasında imzalanmış bu sənədlər hər iki ölkə arasında əməkdaşlığı inkişaf etdirməyə və dərinləşdirməyə, dostluq və müttəfiqlik münasibətlərini möhkəmləndirməyə imkan verdi.

Azərbaycan mehriban qonşuluq prinsiplərinə sadiq qalaraq, vaxtaşırı Gürcüstana ərzaq yardımı da göstərirdi. Məsələn, Azərbaycan hökuməti 1919-cu il iyunun 6-da qərar qəbul etmişdi ki, mövcud dövlət ehtiyatlarından Gürcüstana 5 min pud arpa, 15 min pud kəpək göndərilsin [13, 17 iyun 1919, №123]. Azərbaycan Ticarət, Sənaye və Ərzaq Nazirliyi qısa müddət ərzində hökumətin bu qərarını icra etmiş və həmin il iyunun 25-də Gürcüstana əlavə olaraq daha iki vaqon arpa unu və iki vaqon kəpək yola salmışdı [10, s. 333].

1920-ci il fevralın 20-də Gürcüstanda zəlzələ baş vermiş, Qori şəhərində və ətraf kəndlərdə ciddi dağıntılar olmuş, minlərlə adam evsiz-eşiksiz qalmışdı. Azərbaycan hökuməti dərhal Gürcüstanda zəlzələdən ziyan çəkmiş əhaliyə yardım göstərilməsinə başlamışdı. Fevralın 25-də Gürcüstan Təchizat Nazirliyinə icazə vermişdi ki, Bakıdakı un ehtiyatından 15 769 pudu öz ölkəsinə aparsın və aclıq çəkən əhaliyə paylasın [10, s. 407-408]. Azərbaycan parlamenti isə 11 mart 1920-ci il tarixli qərarı ilə Gürcüstanda zəlzələdən zərər çəkənlərə yardım göstərilməsi üçün 3 milyon rubl vəsait ayırmışdı [12, 1920, №20].

1918-1920-ci illərdə Azərbaycanla Gürcüstan arasında qarşılıqlı faydalı iqtisadi

əməkdaşlığın çox önəmli sahələrindən biri Batum limanından istifadə ilə bağlı idi. Bəhs olunan dövrdə Azərbaycan Xalq Cümhuriyyəti Türkiyə və Avropa dövlətləri ilə iqtisadi və ticarət əlaqələrini Batum vasitəsilə həyata keçirirdi. Ona görə də, Qara dəniz hövzəsində ən mühüm liman şəhəri, Azərbaycan dəmir yolu və ağ neft kəmərinin Avropaya çıxış məntəqəsi olan Batumda nümayəndəlik yaradılması zəruri idi. Azərbaycan hökuməti Batumun ölkə üçün iqtisadi, ticarət və Avropa dövlətləri ilə əlaqələr qurmaq baxımından mühüm əhəmiyyətini nəzərə alaraq, 1918-ci il noyabrın 10-da orada konsulluq yaratdı. Doktor Mahmud bəy Əfəndiyev Azərbaycanın Batumda konsulu təyin edildi [10, s.251].

Azərbaycanın Batumdakı konsulluğu ölkəyə aid yüklərin Batum limanında qəbul edilməsi və yola salınması, nəqliyyat vasitələri, xüsusən yük vaqonları və vaqon-sisternlərlə bağlı mübahisələrin tənzimlənməsi, diplomatik kuryer və poçtla əlaqədar məsələlərin nizama salınması sahəsində mühüm rol oynamışdı.

Tiflisdəki Azərbaycan diplomatik nümayəndəliyi və Batumdakı konsulluq bölgədə türk və müsəlman əhalinin problemlərinin həllində də fəal iştirak edirdi. Məsələn, diplomatik nümayəndəlik Azərbaycan hökumətinin tapşırığı ilə 1919-cu il aprelin 5-də Axalsix qəzasının zərər çəkmiş müsəlman əhalisinə 200 min rubl [10, s. 298], konsulluq isə 1919-cu ilin mart ayında Batum vilayətindəki Azərbaycan təbəələrinə 10 min rubl, 1919-cu ilin mayında normal fəaliyyət göstərməsi üçün Batumdakı türk məktəbinə 10 min rubl yardım etmişdi.

Azərbaycan və Gürcüstan arasında qarşılıqlı faydalı əməkdaşlıq hər iki respublikanın Versal sülh konfransındakı nümayəndə heyətlərinin fəaliyyətində də öz əksini tapmışdı. Həm Azərbaycan, həm də Gürcüstan nümayəndələri keçmiş Rusiya siyasi xadimlərinin və çar generallarının «vahid və bölünməz Rusiya» iddialarına qarşı ardıcıl mübarizə aparmış, bu istiqamətdə atılacaq addımları müntəzəm müzakirə edərək, əksər hallarda yekdil mövqedən çıxış etmişdilər.

Nümayəndə heyətlərinin sıx əməkdaşlığı bütün Cənubi Qafqaz respublikaları üçün böyük iqtisadi və hərbi-strateji əhəmiyyətə malik olan Batum məsələsinin müzakirələrində xüsusilə əhəmiyyətli olmuşdu. Antanta Ali Şurasının 1920-ci ilin fevral-mart aylarında Londonda keçirilən konfransında Batum məsələsi ilə bağlı müttəfiq dövlətlər belə bir layihə irəli sürmüşdülər ki, Batum vilayətinin bir hissəsi Gürcüstana, bir hissəsi Ermənistana verilsin, Batum şəhəri isə Millətlər Cəmiyyətinin nəzarəti altında azad şəhər elan edilsin. Gürcü nümayəndələri bu layihəyə qəti etiraz etmiş, Azərbaycan nümayəndələri də bu məsələdə Gürcüstanı tam dəstəklədilər. Azərbaycan və Gürcüstan nümayəndələri arasında belə razılıq əldə edilmişdi ki, hər iki respublika Batum vilayətinin parçalanmasını məqsədəuyğun hesab etməsinlər. Azərbaycan Batum şəhərinin vilayətlə birlikdə Gürcüstana birləşdirilməsinə tərəfdardır, Gürcüstan da Azərbaycanın Batuma olan mənafeyini tam təmin edir [3, s. 342]. Məhz Azərbaycan tərəfinin belə qəti mövqeyi Batum vilayətinin parçalanması layihəsindən imtina edilməsinə səbəb olmuşdu.

AXC hökuməti də yarandığı ilk günlərdən Dağlı Respublikası ilə əlaqələrin genişləndirilməsinə çalışırdı. Xarici işlər naziri M.H.Hacınskinin 1918-ci il iyunun 26-da Dağlı

hökumətinin sədri Ə.Çermoyevə ünvanladığı məktubda AXC-nin Dağlı Respublikası ilə xoş münasibətlər qurmaq istəyi bildirilmişdi [5, s.170]. Azərbaycan tərəfi Dağlı hökumətinə və dağlı əhalisinə siyasi, iqtisadi və hərbi yardım göstərmək istiqamətində ardıcıl səy göstərirdi. 1918-ci ilin iyun ayında Azərbaycan hökuməti İnquş Milli Şurasının xahişi ilə, inquş mücahidlərinə hərbi sursatla yardım etmişdi.

1918-ci ilin yayında Bakı yaxınlığında Osmanlı-Azərbaycan hərbi qüvvələrinin zərbələrindən Şimala qaçan L.Biçeraxovun rus kazak dəstəsi Dərbəndi və Petrovsk-Portu ələ keçirərək, Rusiya hakimiyyətini bərpa etdi. Belə vəziyyətdə N.Tarkovski dağlı könüllü alayları ilə Xunzaxa, oradan da Temir-xan-şuraya yürüş edərək, bütün bölgənin kazaklar tərəfindən işğalının qarşısını aldı. Sentyabrın sonunda Osmanlı və Azərbaycan hərbi qüvvələri Dağlı Respublikasına yardıma gəldilər. Yusif İzzət paşanın komandanlıq etdiyi ordu hissələri oktyabrın 6-da Dərbəndi, 23-də Temir-xan-şuranı, noyabrın 7-də Petrovsk-Portu Biçeraxovun rus-kazak-erməni qüvvələrindən azad etdi.

Oktyabrın 13-də Ə.Çermoyevin başçılığı ilə Dağlı Respublikası hökuməti Dərbəndə, oktyabrın 24-də isə Temir-xan-Şuraya köçdü. Azərbaycan hökuməti onun normal fəaliyyətə başlaması üçün oktyabrın 8-də 1 milyon manat faizsiz kredit ayırdı [10, s.241]. 1 ay sonra Dağlı hökumətinin maliyyə naziri Vassan Gəray Cabagiyev Bakıya gələrək, Azərbaycan hökumətindən yeni – bu dəfə 500 min manat həcmində maliyyə yardımı aldı. Həmin vaxt Azərbaycan Xalq Cümhuriyyəti Dağlı Respublikasına həmçinin təmənnasız olaraq yanacaq, silah-sursat və s. göndərirdi. Nəhayət, 1918-ci il noyabrın 28-də Azərbaycan xalq Cümhuriyyəti ilə Dağlı Respublikası arasında müqavilə bağlandı. Müqaviləni Azərbaycan tərəfindən ticarət və sənaye naziri Behbud xan Cavanşir və maliyyə naziri Məmməd Həsən Hacınski, Dağlı hökumətinin səlahiyyətli nümayəndələri – sənaye və ticarət naziri Bahadur bəy Malaçixan və yollar, poçt və teleqraf naziri İbrahim bəy Heydərov imzaladılar. Müqaviləyə əsasən, Azərbaycan tərəfi Dağlı hökumətinə 10 milyon manat məbləğində faizsiz kredit verdi. Dağlı hökuməti bu borcu 2 il müddətində buğda ilə qaytarmalı idi [9, s.107-108]. Daha sonra əlavə maliyyə yardımı, yanacaq və silah-sursat yardımları göstərildi.

1919-cu ilin əvvəlində Denikin ordusu Terek vilayətinə soxuldu, inquşların müqavimətini çətinliklə də olsa qırıb, Vladiqafqazı ələ keçirdi. Dağlı hökumətinin ingilis komandanlığı və Denikinlə danışıqları nəticəsiz qaldı. Denikin Dağlı Respublikasını tanımaqdan boyun qaçırdı və “Könüllü ordu"nun generalı Lyaxovu Terek-Dağıstan diyarının hakimi təyin etdi. Martın 5-də Denikin ordusu Çeçenistana soxuldu. Azərbaycan hökuməti Dağlı Respublikasına qarşı hərbi təcavüzün dayandırılması üçün bütün imkanlara əl atdı: Dağlı hökumətinə yeni maliyyə yardımı göstərdi, könüllü hərbi dəstələr və sanitar briqadaları təşkil edilməyə başladı, Bakıdakı ingilis missiyasından təsirli tədbirlər görməsi istənildi və s.

Azərbaycan Xalq Cümhuriyyəti ilə Dağlı Respublikası arasında 1919-cu il yanvarın 9-da yeni müqavilə imzalandı. Azərbaycan tərəfindən Fətəli xan Xoyskinin üçüncü hökumət kabinəsində Ərzaq naziri olmuş K.N.Lizqarın və Dağlı Respublikasının Azərbaycandakı

nümayəndəsi Əlixan Qantəmirin imzaladıqları bu müqaviləyə görə Dağlı Respublikası hökuməti Azərbaycana 50 vaqon buğda göndərməli, Azərbaycan tərəfi isə pudu 60 manatdan haqqını dərhal ödəməli idi. Bütün taxılın müqavilənin imzalanmasından sonrakı 4 ay ərzində göndərilməsi razılaşdırıldı [2, s.138]. 1919-cu il fevralın 23-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə Dağlı Respublikası arasında üçüncü müqavilə bağlandı. Bu müqaviləyə əsasən, Azərbaycan tərəfi Dağlı hökumətinə daha 10 milyon manat faizsiz kredit verməyi öhdəsinə götürdü. Bu vəsaitin 5 milyonu dərhal ödənildi [10, s.290].

Azərbaycan Xalq Cümhuriyyəti 1919-cu ilin əvvəlində Şimali Qafqazın Denikin tərəfindən işğalına qarşı Dağlı hökumətinə həm də diplomatik və hərbi yardım göstərdi. Fevralın 25-də öz səlahiyyətli elçisi Əbdürrəhim bəy Haqverdiyevi Temir-xan-Şuraya göndərməyi qərara aldı. Martın 1-də Azərbaycan hökuməti Denikinə qəti etirazını bildirdi. Şimali Qafqazın işğalını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq üçün addımlar atdı. Martın 6-da Nazirlər Şurasının sədri Fətəli xan Xoyski Bakıdakı müttəfiq qoşunlarının komandanı general U.Tomsona nota təqdim etdi. Notada Anlanta dövlətlərindən "…qan tökülməsinin və bütün Qafqazı bürüyə biləcək böyük yanğının qarşısını almaq məqsədilə general Denikinin Könüllü ordusunun Şimali Qafqaz Dağlılar Xalqları İttifaqı Respublikasına qarşı təcavüzkar hərəkətlərinə dərhal son qoyması üçün ən qəti tədbirlər görülməsi" istənildi [9, s.177-178].

Azərbaycan hökumətinin diplomatik fəaliyyəti nəticəsində Gürcüstan hökuməti də martın 7-də Denikinin Dağlı Respublikası ərazisinə hücumuna etirazını bildirdi və Dağlı hökumətinə yardım göstərəcəyini elan etdi. Dağlı Respublikası üçün çox ağır bir vaxtda – martın 28-də Azərbaycanın diplomatik nümayəndəliyi Temir-xan-şurada fəaliyyətə başladı [9, s.196] və elə həmin gün Azərbaycan Xarici işlər nazirliyinə Denikin ordusunun və rus kazaklarının Terek vilayətinə, həmçinin Çeçenistana hücum etmələri haqqında məlumat göndərdi.

Dağlı Respublikası üçün son dərəcə ağır olan həmin günlərdə Azərbaycan diplomatik nümayəndəliyinin Temir-xan-şurada fəaliyyətə başlaması Dağlı Respublikası və bütün Şimali Qafqaz xalqlarına böyük mənəvi və siyasi yardım idi. Ona görə də, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin bu addımı Şimali Qafqazda sevinclə qarşılanmış, ruh yüksəkliyi doğurmuşdu. Diplomatik nümayəndəlik Dağlı Respublikasındakı Azərbaycan vətəndaşları ilə əlaqə yaratmış, onların hüquqlarının qorunması, ehtiyacı olanlara yardım göstərilməsi işini təşkil etmişdi.

1919-cu il aprelin əvvəlində Denikin ordusunun Çeçenistanın çox hissəsini işğal etməsi Dağlı Respublikasında hökumət böhranı yaratdı. Dağıstanda isə Dağlı Respublikasından çıxıb Azərbaycanla birləşmək uğrunda hərəkat geniş vüsət aldı. Belə bir şəraitdə aprelin 6-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Dağlı Respublikasına hərbi yardım göstərməyi qərara aldı. Bu məqsədlə həm könüllü dəstələrin yaradılmasına və Şimali Qafqaza göndərilməsinə başlandı, həm də dağlı döyüşçülərinə tibbi yardım üçün sanitar briqadaları təşkil edildi. Aprelin 17-də isə Azərbaycan Cümhuriyyəti Parlamenti Dağlı

Respublikası hökumətinə daha 30 milyon manat faizsiz kredit vermək haqqında qanun qəbul etdi [10, s.40-41].

Beləliklə, 1918-ci ilin sonu – 1919-cu ilin ilk aylarında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti özünün çətin vəziyyətdə olmasına baxmayaraq, Dağlı Respublikasına 50 milyon rubl həcmində maliyyə yardımı göstərdi. Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından biri olan M.Ə. Rəsulzadə bu yardımın real miqyasını təsəvvür etmək üçün aşağıdakı müqayisələri oxucuların diqqətinə çatdırmağı məqsədəuyğun saymışdı: 50 milyon manat o zamankı valyuta kursu ilə 2,5 milyon ingilis funt-strerlinqinə bərabər idi. 1919-cu il üçün AXC büdcəsinin xərcləri 415 milyon manat müəyyən edilmişdi və Dağlı Respublikasına Azərbaycanın maliyyə yardımı dövlət büdcəsinin 1/8 hissəsini təşkil edirdi [6, s.59].

Denikinin ordusu 1919-cu il mayın sonunda bütün Şimali Qafqazı ələ keçirdikdən sonra Dağlı Respublikası hökumətinin və parlamentinin üzvlərinə Bakıda sığınacaq verildi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti, bundan əlavə, Dağıstan qaçqınlarına yardım göstərilməsi üçün 1 milyon manat vəsait ayırdı.

Bütün bu faktlar aydın göstərir ki, Azərbaycan Respublikası Gürcüstan və Dağlı respublikaları ilə 1918-ci ilin yazında öz müstəqilliyini elan etdikdən sonra normal qonşuluq əlaqələri yaratmışdı. Sonrakı dövrdə isə bu respublikalar arasında qarşılıqlı faydalı əməkdaşlıq yüksələn xətlə inkişaf etmiş, dövlətlərarası münasibətlərin bütün sahələrini əhatə edən çoxsaylı müqavilə və sazişlər imzalanmış, bu respublikalar arasında strateji müttəfiqlik və etibarlı tərəfdaşlıq münasibətləri bərqərar olmuşdu. Yalnız Ermənistan Respublikasının Azərbaycana ərazi iddiaları, silahlı basqınları, dinc müsəlman-türk əhaliyə qarşı qətl və qarətləri onunla normal əlaqələr qurulmasına imkan verməmişdi.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası Dövlət Arxivinin 970 saylı – AXC Xarici işlər nazirliyinin fondu.
2. Azərbaycan tarixi. 7 cilddə, c. V, Bakı, 2001.
3. Həsənov C.P., (1993), Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər), Bakı.
4. XX əsr Azərbaycan tarixi. Prof. Y.B.Yusifov və T.T.Vəliyevin ümumi redaktəsi ilə, c. II, Bakı, 2004.
5. Nəsibzadə N.L., (1996), Azərbaycanın xarici siyasəti (1918-1920), Bakı.
6. Rəsulzadə M.Ə., (1990), Azərbaycan Cümhuriyyəti, Bakı.
7. Vəkilov R.Ə., (1998), Azərbaycan Respublikasının yaranma tarixi, Bakı.
8. Адрес-календарь Азербайджанской Республики на 1920 г. Баку, 1920.
9. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы), Баку, 1998.

10. Азербайджанская Демократическая Республика (1918-1920), Законодательные акты (сборник документов), Баку, 1998.
11. Азербайджанская Демократическая Республика (1918-1920), Парламент (стенографиические отчеты), Баку, 1998.
12. Вестник правительства Азербайджанской Республики, 1919-1920 гг.
13. Газ, «Азербайджан». 1918-1920 гг.
14. Документы и материалы по внешней политике Закавказье и Грузии, Тифлис, 1919.
15. Топчибашев А.А., (1994), Дипломатические беседы в Станбуле (1918-1919 гг.), Баку.